

Ey varlığı talanmış, ey can evi tarimar,
Sənin bu görkəmində bir Tanrı hikməti var:
Torpağı bölünənin bədəni bölünməli;
Bir əlilə dönməli, bir şikəstə dönməli,
Canından şərəfsizlik damğasını silməli;
Ruhu olan insanın bədəni kəsilməli!
Ağrısını canında duymalı ki vətənin,
Bu vətən yaşayacaq ağrılarında sənin.
Qırıldın, amma yenə qalsın deyə inadın,
Sən ki canından kəsib torpağa mismarladın.
Bir yarın... sancıldı ki, torpağa
Üstündəki baş-bədən çevrilsin bir bayrağa.
Bir bu pərdələr qalxsa, bir dönüb Qeybi görsən,
Ey bu gün zəlil olan sabah nə bəxtəvərsən!
Sən canından yaralı, sevdalarından əlil,
Ruhun ki şikəst deyil, qəlbin ki şikəst deyil.
İçindəki yürümək, qoşmaq arzusudursa,
Yürü arzularınla içindəki sonsuza!..
Hər kəs bir parıltılı dünya təmənnasında,
Sən ki nur daşıyırsan canının cilasında.
Dur, peyğəmbər adına, dur, tanrı xatirinə,
Əl açma çörək deyə kimsələrin birinə.
Qoy yesin bu dünyadan artırsın bədəninə,
Sən kəsil bu dünyadan, sən doğran, bölün yenə.
Sən doğran, sən cilalan, parla, sıyrıl, yarıl, çıx,
Səni Allah gözləyir, çırpın, ey ruh, darıl, çıx!..

## Ərdoğan

Türkün şanlı yürüşü çatırmış kimi sona,
Yenidən gömülürmüş kimi Ərgənəkona,
Bu dəfə qussun deyə yeddi əsrin kinini,
Bəlkə bitirsin deyə Allahın son dinini,
Zülmün, məkrin qoşunu dörd yanını sarırkən,
- Bu dəfə son! - Bu dəfə nəhayət, bitdi, - derkən
O ruh, o qalib ruh ki, hər doğanda sirr doğan -
İndi də səndə doğdu, Rəcəb Tayyib Ərdoğan!

Tarix çökür zamanın laylarına sıxılır,
İnsanlığın ruhuna, damarına yığılır.
Möhtac olduğun qüdrət damarında qandadır,
Sənin yaşamaq haqqın yaşanmış zamandadır.
Tarix kimə verdi ki sınırsız qüdrətini,
Kim alıb, kim daşıyır haqqın əmanətini?
Kimsə zorla, sərvətlə qapılmasın xülyaya,
Türksüz bir insan oğlu düşməsin bu sevdaya.
Yeri, göyü bölələr, kimlər, kimlər gələlər,
Onlar Allahdılarmı bizə yol göstərələr?
Beş qitənin üstünə qalxmadımı beş barmaq -
Əsrin üfüqlərinə türkün açdığı bayraq! -
Demədimi dünyaya: "dünya beşdən böyükdür!"
Tarix türkün məhşərə daşıyacağı yükdür!
O ruh, o qadir ruh ki, doğuluşdan pir doğan -
İndi də səndə doğdu, Rəcəb Tayyib Ərdoğan!

Dünyanın qulağında hələ də çınlamada
Əsrlərin bağrından qopub gələn o nida -
Bu sərsəm fırlanışa"uvan minit" hayqıran,
Fırtınalar önündə məğrur duran, tək duran,
Tuzakları dağıdan, qurğuları uçuran,
Hesabları qapadan, uykuları qaçıran,
Ey yüz ilin insanı, əsrə bərabər insan,
Qoca bir tarix görür sənə baxan hər insan!
Ürəklərin başkanı, könüllərin sultanı,
Bir tək sənmi qalmısan bu dünyanın vicdanı?
Onca adam içində qərib adam, tək adam,
Adam kimi bə adam, qatqısız, gerçək adam!
Dünya sənə gəldi də, sən dünyaya uymadın,
Sən insanı düşməyə, alçalmağa qoymadın!
O ruh, o nadir ruh ki, almaz doğan, dürr doğan -
İndi də səndə doğdu, Rəcəb Tayyib Ərdoğan!

Kəsəcək, ayıracaq yenə zülmün tiyəsi,
Yenə birləşdirəcək qəlblərin "Rabiyəsi" -
Tək dövlət, tək məmləkət, tək ordu və tək bayraq -
Səadət yenə ancaq vəhdətdən doğulacaq!
Nə bütlər çökdü, sındı sənin yüksəlişinlə,
Siyasət meydanına peyğəmbər gəlişinlə.
Ey ağaya qalxışı dirilən insanlığın!
Ey canlı yürüyüşü əzmin, qəhrəmanlığın!
Dünya səndən alırkən peyğəmbərin ətrini,
Öz Əbu-Cəhllərin bilməzlərmi qədrini?
Olmasaydı varlığın bunca gərək həyata,
Şəhadət yaraşırdı sənə bir tək dünyada!
Ey türk,nə mutlu sana, ey ruh, nə rəhmət sana
Yarın salam verirkən əbədiyyətdə Ona !
Dörd yanında cənnətin işıl-işıl nurları -
Bədrin, Çanaqqalanın, Qarabağın ərləri.
O ruh, o şəhid ruh ki, aşiq doğan, ər doğan -
İndi də səndə doğdu, Rəcəb Tayyib Ərdoğan!

Tale bu cənnət yurdu neçə gözlə qoruyur,
Göydə mələklər, yerdə S-400-lər qoruyur.
Çırpınacaq, çatacaq, yüksələcək Türkiyə
İdrakın ulaşdığı o əngin yüksəkliyə!
Daşacaq, daşıracaq nəsillərin hünəri
Fatehin, Atatürkün açdığı üfüqləri!
Türkün ağlı, xəyalı sonsuzluğa yetməzmi?!
İstanbulu fəth edən kosmosu fəth etməzmi?!
O ruh, o yılmaz ruh ki, dəmir doğan, sərt doğan -
İndi də səndə doğdu, Rəcəb Tayyib Ərdoğan!

Kim qıracaq bu əzmi, kim yenəcək bu ruhu?
Bir ruh ki, sevdasından nə dönür, nə yorulur.
Vicdanlara çırpılan türkün dəli inadı!
Ürəklərdə qanayan Qarabağın fəryadı!
Əcdadın qəbri yanır, nə durmusan, dur da gəl!
Bu yaralı Vətənə, bu müqəddəs yurda gəl!
Ayağın dəyən torpaq inim-inim inləsin,
Tarix qoxan türkcəni dönə-dönə dinləsin.
O məğrur duruşunla, o qalib ruhunla gəl!
O sakin imanınla, o çılğın duyğunla gəl!
Heç yuxuna gəlmirmi şəhid çağırışları,
Nakam gedən ruhların qisas yalvarışları?
Bu dəfə can başkanım, sən bir paşa kimi gəl!
Kamal paşa kimi gəl, Ənvər paşa kimi gəl!
Rəcəb paşa kimi gəl!
Soyuq ruzgarlar əsir, paşam, qışa kimi gəl!
O ruh, o qalib ruh ki, tarix boyu hürr doğan -
İndi də səndə doğdu, Rəcəb Tayyib Ərdoğan!
Ey türkün taleyinə hər əsrdə bir doğan!

## Şəhid

Ey şəhid!
Sən şəhid, mən də şəhid,
Biz ki bir vətəndə şəhid -
sən bu torpaqda şəhid,
mən bu bədəndə şəhid.
Sən ki verdin canını,
bir dəfə oldun da şəhid,
getdin öndən də, şəhid!
Mən ki, hər gün görürəm
torpağı yad əllərdə,
ölürəm yüz dəfə hər gün,
oluram yüz dəfə səndən də şəhid!

## Qazi

Torpağı, odu, suyu havanı doğrasalar,
Varlığından dünyanın bir zərrəmi azalar?!
Sən-torpağın, havanın, odun, suyun cövhəri,
Canının kəsiyində ruhunun pöhrələri!
Yarı insan, yarı nur, yarı can, yarı mələk -
Sən belə olmalıydın, Allah istədi demək.
Ey varlıqla heçliyi bir bədəndə daşıyan,
Ey yarı bədəniylə iki dünya yaşayan!
Sən sonsuza gedən ruh, bu can, bu bədən - yolun,
Yarısındamı qaldın Allaha gedən yolun?!

## Dalğalan, bayrağım, dalğalan!

Dalğalan, bayrağım, dalğalan!
Sənə nə gözlər baxır.
Tarix zamanda deyil,
Sənin dalğalanmalarında axır.
Dalğalan, bayrağım,
Bu göylər sənindir,
Çəkinmə heç nədən, dalğalan!
Başını qoparıb, səni baş yerinə
daşıyar əlli milyon bədən, dalğalan!
Nə vaxtdır tarixin buxovlarında
Bu millət gücünü saxlar içində,
Dalğalan, baxıb da bayraqdarına
qürurla deyim:
Var millətimin bayrağı bayraqlar içində.
Dalğalan, bayrağım, dalğalan!
Üstünə ay-ulduz əks edən,
Qoynunda ürəklər rəqs edən
ey sonsuz okean, dalğalan!
Parla, yan!
Köksündə şəhadət nurları parlayan
cənnətdən bir parçam, dalğalan!
Ruhumun libası,
Bu dünyada geyinəcəyim
kəfənim-son parçam,
Dalğalan!

## Qələbə

Ey ulu qələbə, ey ulu zəfər,
ey göz yaşlarını donduran qəhər!
Ey üfüqlərdə gülən istiqbal,
qəlbləri yandıran atəşli xəyal!
İllərdir həsrətindəyəm!
Gəl!
Nə canlar getdilər uğruna,
nə qanlar tökdülər umruna,
yoluna şəhidlər döşədim,
bir ömür gözlədim,
gəl,
çiçəklə, güllə də olsan,
sinəmə sancılan güllə də olsan.
Gəl, şəhid ruhları çağırım,
sonunda mən də
bir köküs dolusu bağırım:
- Qələbə! Qələbə!

ARZU ƏSƏD

